

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

3 iyun 2021-ci il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 20 (3533)


# AZƏRBAYCAN PANDEMİYA İLƏ MÜBARİZƏDƏ NÜMUNƏVİ ÖLKƏDİR

## *Prezident İlham Əliyev Ümumdünya Səhiyyə Assambleyasının sessiyasında çıxış edib*



Mayın 24-dən 31-dək Ümumdünya Səhiyyə Təşkilatının əsas qərarverici orqanı olan Ümumdünya Səhiyyə Assambleyasının “Pandemiyaya son qoyaraq növbəti pandemiya təhlükəsinin qarşısının alınması: birlikdə daha sağlam, təhlükəsiz və ədalətli dünyanın qurulması” mövzusuna həsr edilmiş 74-cü sessiyası virtual şəkildə keçirilib.

Sessiyanın bağlanış mərasimində Prezident İlham Əliyev videoformatda çıxış edib.

Dövlətimizin başçısı ilk olaraq davam etməkdə olan COVID-19 pandemiyası ilə əlaqədar qlobal səhiyyə gündəliyi üçün olduqca çətin bir dönəmdə baş tutan Ümumdünya Səhiyyə Assambleyasının 74-cü sessiyasında çıxış etməklə bağlı dəvətə görə minnətdarlığını bildirib.

Azərbaycanda COVID-19-un əhaliyə mənfi təsirinin minimuma endirilməsi və vəziyyətin nəzarətdə saxlanılması ilə bağlı praktiki tədbirlərin həyata keçirildiyini deyən Prezident İlham Əliyev qısa zaman ərzində 13 modul tipli və 1 daimi xəstəxananın inşa edildiyini, xəstələrin müalicəsi üçün müəyyən edilmiş xəstəxana çarpayılarının toplam sayının 10 mindən artıq olduğunu vurğulayıb.

Ölkəmizin rəhbəri COVID-in mənfi təsirinə məruz qalmış ölkə vətəndaşlarını və sahibkarlıq subyektlərini dəstəkləmək məqsədilə təxminən 2 milyard ABŞ dolları həcmində sosial-iqtisadi təşviq paketinin təqdim edildiyini də sessiya iştirakçılarının diqqətinə çatdırıb.

Görülmüş müfəssəl tədbirlər nəticəsində karantin rejiminin tədricən yumşaldılmasından danışan dövlətimizin başçısı ölkədəki peyvənd kampaniyasının keçirilməsindən söz açıb. Bildirib ki, cari ilin yanvar ayının ortalarından etibarən peyvənd kampaniyasına başlanılıb və 99,94 faizi “Sinovak”, qalanı isə “AstraZeneca” və “Sputnik” olmaqla, 2 milyon doza peyvənd istifadə edilib.

Prezident İlham Əliyev Azərbaycanın Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon ABŞ dolları həcmində könüllü maliyyə töhfəsi etdiyini, eləcə də koronavirusla əlaqədar 30-dan artıq ölkəyə humanitar və maliyyə yardımı göstərdiyini qeyd edib.

Dövlətimizin başçısı çıxışı zamanı bəzi ölkələrin ehtiyaclarından bir neçə dəfə artıq peyvənd əldə etməsinə toxunaraq “peyvənd millətçiliyi”nin davam etdiyini, inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında peyvəndlərə çıxışla bağlı getdikcə dərinləşən qeyri-bərabərliyin narahatlıq doğurduğunu da diqqətə çatdırıb.

Bu problemin həlli məqsədilə Azərbaycanın Qoşulmama Hərəkatı adından BMT-nin İnsan Hüquqları Şurasında bütün ölkələrin peyvəndlərə bərabər və universal çıxışının təmin edilməsi ilə bağlı qətnamənin qəbul olunduğunu bildirən ölkəmizin rəhbəri inkişaf etmiş ölkələri, həmçinin donor təşkilatlarını inkişaf etməkdə olan, xüsusilə ən az inkişaf etmiş ölkələrə dəstək verməyə çağırıb.

## “8 Noyabr” stansiyası istifadəyə verilib



Mayın 29-da Bakı Metropoliteninin “8 Noyabr” stansiyası istifadəyə verilib.

Prezident İlham Əliyev stansiyada yaradılan şəraitlə tanış olub.

“Bakı Metropoliteni” Qapalı Səhmdar Cəmiyyətinin sədri Zaur Hüseynov dövlətimizin başçısına stansiya barədə məlumat verib.

Bildirilib ki, ümumi uzunluğu 363,34 metr olan Bakı Metropoliteninin 26-cı, “Bənövşəyi” xəttin 3-cü stansiyası Nəsimi rayonunda yerləşir. Stansiya ərazinin yeraltı nəqliyyat vasitəsilə şəhərin mərkəzi və paytaxtın digər rayonları ilə birləşdirilməsində xüsusi rol oynayır.

QSC-nin sədri sərnişinlərin rahatlığının və təhlükəsizliyinin maksimum şəkildə təmin olunduğunu, hərəkətin optimal təşkili ilə vaxta qənaət edilməsinin isə vətəndaş məmnunluğuna hesablandığını qeyd edib.

Metropolitenin bu stansiyasının tikintisi zamanı həssas kateqoriyadan olan vətəndaşlarımızın çətinlik çəkməməsi üçün hər cür şəraitin yaradıldığı da diqqətə çatdırılıb.

***Mayın 28-də Prezident İlham Əliyev Ağdam şəhərinin bərpasının təməl daşının qoyulması mərasimində iştirak edib, rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb.***

***Dövlətimizin başçısı görüşdə çıxış edib.***

**Mayın 29-da Prezident İlham Əliyev İqtisadiyyat Nazirliyinin və Suraxanı Rayon Məhkəməsinin yeni binalarının açılışında iştirak edib.**

**Ədliyyə naziri Fikrət Məmmədov və İqtisadiyyat naziri Mikayıl Cabbarov dövlətimizin başçısına binalarda yaradılan şərait barədə məlumat veriblər.**

***Mayın 30-da Prezident İlham Əliyev Türkiyə Respublikası Ali Məhkəməsinin Baş prokuroru Bəkir Şahinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

***Görüşdə Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulanıb, prokurorluq orqanlarının həyata keçirdiyi əməkdaşlığın bu münasibətlərin inkişafında önəmi qeyd olunub.***

## Polisin “Formula-1”hazırlığı...

**Ölkəmizdə növbəti dəfə “Formula-1” Azərbaycan Qran-Prisi keçirilir. Pandemiya ilə əlaqədar ötənilki təxirəsalmadan sonra Bakı treki yenidən bolidlərin təkərlərilə isinəcək...**

Belə kütləvi tədbirlərin keçirilməsi üçün təhlükəsizlik əsas kriteriya kimi qəbul olunur. Ölkəmiz istənilən beynəlxalq tədbirə ev sahibliyi etmək iqtidarında olduğunu indiyədək keçirilən çoxsaylı mötəbər kütləvi tədbirlərlə təsdiq edib. Bununla bağlı beynəlxalq ictimaiyyətdə artıq möhkəm inam formalaşıb və heç şübhəsiz ki, bunda dövlətimizin digər güc strukturları ilə birlikdə, daxili işlər orqanlarının böyük əməyi vardır.

“Formula-1” digər kütləvi tədbirlərdən fərqlənir, yarışlar salonlarda, idman arenalarında deyil, açıq, geniş ərazidə keçirilir. Yarış ərəfəsində polisin xidmət yeri də şəhərin geniş bir ərazisini əhatə edir və təbii ki, əhalinin daha




sıx yaşadığı ərazidə təhlükəsizliyi təmin etmək üçün daha gərgin səy tələb olunur. Yarış məhz yollarda keçirildiyinə görə məsuliyyət də əsasən yol polisinin üzərinə düşür. Şəhərdə tıxacların yaranmaması, eləcə də hərəkətin təhlükəsiz təşkili üçün 24 saat xidmət aparan yol polisi əməkdaşlarının əzmkar xidmətləri tədbirin keçirilməsində xüsusi rol oynayır.

**Bakı şəhər BPİ DYPİ-nin bölmə rəisi, polis polkovnki Vaqif Əsədov** “Polis”ə bildirib ki, yarış həftəsinin bütün günlərində nəqliyyatın hərəkətinə nəzarət edən Bakı şəhər BPİ DYPİ xidmətini gücləndirilmiş iş rejimində həyata keçirəcək. Bölmə rəisinin sözlərinə görə, Qran Pri ilə əlaqədar olaraq “Bakı şəhər halqası”nın keçdiyi və onun ətrafındakı küçələrdə nəqliyyatın hərəkəti 31 may, gecə saat 01:00-dan etibarən 8 iyun, səhər saat 06:00-dək dayandırılıb. Eləcə də yük avtomobillərinin şəhər daxilində



hərəkəti bu tarixə qədər məhdudlaşdırılıb. Yol polisi şəhər sakinlərinə tövsiyə edir ki, ciddi zərurət olmadığı halda şəxsi nəqliyyat vasitəsi ilə şəhər mərkəzinə daxil olmasınlar və daha çox ictimai nəqliyyata üstünlük versinlər.

Məhdudiyyətin tətbiq olunduğu müddət ərzində əhalinin ictimai nəqliyyata əlçatanlığını təmin etmək üçün trekin və onun ətrafındakı küçələrdən keçən marşrut xətlərinin hərəkət sxemi də müvəqqəti dəyişdirilib. Bununla yanaşı, piyadaların da rahat, maneəsiz və fasiləsiz hərəkətini təmin etmək məqsədilə zəruri tədbirlər görülüb. Belə ki, yarış həftəsi ərzində şəhər sakinləri trek ərazisində yerləşən yeraltı keçidlərdən və trekin müəyyən yerlərində quraşdırılan yerüstü keçidlərdən istifadə edə biləcəklər.

Qeyd edək ki, bu il "Formula-1" yarışı tamaşaçısız keçirildiyi üçün dənizkənarı bulvar ərazisi bağlı deyil və şəhər sakinləri yarış həftəsinin bütün günlərində bu ərazidən gün boyu istifadə edə bilərlər.

## Nəcib addım, gözəl təşəbbüs

***Şəmkir RPŞ-nin əməkdaşları 1-iyun Uşaqların Müdafiəsi Günü anadangəlmə fiziki qüsurlu azyaşlı Əkbərov Əli Fikrət oğluna baş çəkib, ona əlil arabası hədiyyə ediblər.***

***Əli Əkbərovun ailəsi onları yad edib, qayğıları ilə maraqlandıqlarına görə DİN rəhbərliyinə və RPŞ-nin əməkdaşlarına təşəkkürlərini bildiriblər.***

## Maarifləndirici tədbirlər davam etdirilir

**Pandemiyanın yaratdığı məhdudiyyətlərə baxmayaraq, polis yetkinlik yaşına çatmayanları zərərli vərdişlərdən qorumaq məqsədilə maarifləndirici tədbirləri davam etdirir.**

Növbəti tədbir bu günlərdə Bakı Şəhəri üzrə Təhsil İdarəsinin dəstəyi və 5 nömrəli Uşaq - Gənclər İnkişaf Mərkəzinin təşkilatçılığı ilə onlayn qaydada baş tutub.

"Ümumdünya Tütünlə Mübarizə Günü"nə həsr olunmuş "Dəyirmi masa"ya dəvət olunan **Bakı şəhər BPİ İctimai Təhlükəsizlik İdarəsinin baş inspektoru, polis polkovnik-leytenantı Kəmalə Ələkbərova** tütün məmulatlarından istifadənin zərərləri barədə şagirdlərə geniş məlumat verib.

Qeyd edilib ki, siqaret, alkoqollu içkilər, narkomaniya və digər bu kimi zərərli vərdişlər bütün cəmiyyətin bəlası sayılır. Məhz buna görə də polis, əsasən, yeniyetmə və gəncləri hədəf alan belə problemlərin ağır fəsadlarını önləmək üçün qabaqlayıcı tədbirlər həyata keçirir.

Tədbirdə digər zərərli vərdişlər barədə şagirdlərin sualları cavablandırılıb, onları narahat edən bir sıra məsələlərlə bağlı fikir mübadiləsi aparılıb, müvafiq izahatlar verilib.

Qeyd edək ki, paytaxtın orta məktəb şagirdləri ilə bu il ərzində İdarənin əməkdaşları tərəfindən onlayn qaydada 7 belə maarifləndirici tədbir keçirilib.

*"Polis"*

## Polisdən talassemiyalı xəstələrə dəstək

**Ölkəmizdə talassemiya və hemofiliyalı xəstələr dövlət qayğısı ilə əhatə olunublar.** Bu həssas sahə ilə bağlı görülən tədbirlər əhalinin daha sağlam gələcəyinə hesablanıb. Koronavirus pandemiyasının dünyada sürətlə yayıldığı bir vaxtda bu infeksiyaya daha çox immuniteti zəif və qanı normadan aşağı olanların digər insanlarla müqayisədə tez yoluxma ehtimalını, onların risk qrupuna aid olduqlarını nəzərə alaraq, **Daxili İşlər Nazirliyinin rəhbərliyi də bu məsələyə xüsusi həssaslıqla yanaşır.**



Belə ki, mütəmadi olaraq asayiş keşikçiləri qanvermə aksiyalarında fəal iştirak edir, qan verib yaşatmaqla xeyirxah missiyaya qoşulurlar.



**İyunun 2-də Milli Hematologiya və Transfiziologiya Mərkəzi-Qan Bankı bölməsinin təşkilatçılığı ilə Sabunçu Rayon Mühafizə İdarəsində keçirilən aksiyada RMİ-nin 53 əməkdaşı iştirak edib.**

Donorlar əvvəlcə həkim nəzarətindən keçirilib, onların sağlamlıq durumu müəyyənləşdikdən sonra aksiyada iştirak etmələrinə icazə verilib.

Qanvermə aksiyasında ümumilikdə 15,9 litr qan tədarük edilib.

Qeyd edək ki, tədbir Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargahın müəyyən etdiyi karantin qaydalarının tələbləri nəzərə alınmaqla keçirilib.

*Teymur Əlizadə,*
*polis mayoru*

## Avtomobillərin qənimi tutuldu...

Paytaxtın Nizami rayonunda nəqliyyat vasitələrinin yan şüşələri sındırılaraq avtomobillərin salonlarında olan pul və digər qiymətli əşyalar oğurlanıb. Bu barədə zərərçəkən şəxslər Nizami Rayon Polis İdarəsi və 25-ci Polis Şöbəsinə müraciət edərək hadisəni törədən şəxsin tutularaq məsuliyyətə cəlb edilməsini xahiş ediblər.

Qeyd olunan hadisələr dərhal nəzarətə götürülüb və zəruri istintaq-əməliyyat tədbirləri həyata keçirilib. Nizami Rayon Polis İdarəsinin Post-Patrul Xidməti Bölüyü və 25-ci Polis Şöbəsinin əməkdaşları tərəfindən "isti izlər"lə keçirilən əməliyyat-axtarış tədbiri nəticəsində həmin oğurluqları törətməkdə şübhəli bilinən, əvvəllər məhkum olunmuş Elgün Şirinzadə saxlanılıb. O, gecə saatlarında növbəti dəfə avtomobillərdən birinin şüşəsini sındırıb hadisə yerindən qaçmaq istəyərkən Nizami RPİ-nin PPXB-nin əməkdaşları tərəfindən tutularaq 25-ci PŞ-yə təhvil verilib. Araşdırma zamanı E.Şirinzadənin may ayının 31-nə keçən gecə təkcə Nizami rayonunda 12 nəqliyyat vasitəsinin yan şüşələrini sındıraraq oğurluq etdiyi müəyyən edilib. Bundan başqa onun keçən ayın əvvəllərində paytaxt ərazisində daha 3 avtomobildən eyni usulla oğurluq etdiyi məlum olub.

E.Şirinzadə barəsində 25-ci PŞ-də toplanan materiallar araşdırılması üçün Nizami RPİ-yə təqdim edilib. Saxlanılan şəxsin digər cinayət əlaqələrinin müəyyən edilməsi istiqamətində istintaq-əməliyyat tədbirləri davam etdirilir.

## Narkotik tərkibli bitkilər becərirdi

Sabunçu Rayon Polis İdarəsinin 14-cü Polis Bölməsinin əməkdaşları tərəfindən narkotik vasitə və psixotrop maddələrin qanunsuz dövriyyəsi, həmçinin, narkotik tərkibli bitkilərin kultivasiyası ilə məşğul olan şəxslərin aşkar edilərək cinayət məsuliyyətinə cəlb edilmələri istiqamətində növbəti əməliyyat həyata keçirilib.

Belə ki, 14-cü Polis Bölməsinə Maştağa qəsəbəsində yaşayan vətəndaş Şəms Sultanovanın evinin həyətində satmaq məqsədi ilə narkotik tərkibli bitkilərin kultivasiyası ilə məşğul olması barədə əməliyyat məlumatı daxil olub. Polislər tərəfindən həmin ünvana baxış zamanı aqrotexniki qaydada kultivasiya edilmiş 475 ədəd təmiz çəkisi 3 kiloqram 415 qram olan çətənə kolu aşkar edilib. Şəms Sultanova ifadəsində narkotik tərkibli bitkiləri bu ilin əvvəlində əkdiyini bildirib.

*Anar Qafarov,*
*polis kapitanı*

# Polis Akademiyasında beynəlxalq elmi-praktiki videokonfrans keçirilib

**Bu ilin sentyabrında yaranmasının 100 illiyini qeyd edəcək Akademiyada silsilə tədbirlərin keçirilməsinə start verilib. Bu münasibətlə daha bir tədbir, beynəlxalq elmi-praktiki videokonfrans keçirilib.**



Konfransda respublikamızın xüsusi təyinatlı və digər təhsil müəssisələrinin nümayəndələri ilə yanaşı, Türkiyə, Rusiya, Ukrayna, Belarus, Qazaxıstan, Moldova və Tacikistan dövlətlərinin ali və xüsusi təyinatlı təhsil müəssisələrinin rəhbərləri və 80-dən artıq tanınmış alim və mütəxəssisləri iştirak edib.

Açılış mərasimində **Polis Akademiyasının rəisi, polis polkovniki Canpolad Daanov** iştirakçıları DİN-in rəhbərliyi adından salamlayaraq konfransın işinə uğurlar arzulayıb. O, Akademiyanın yaranma tarixi və fəaliyyət istiqamətləri barədə iştirakçılara məlumat verib. O da qeyd olunub ki, ulu öndərin irsini layiqli davam etdirən Silahlı Qüvvələrin Ali Baş Komandanı, Prezident cənab İlham Əliyevin üç dəfə Polis Akademiyasını ziyarət etməsi şəxsi heyət üçün çox önəm daşıyır. Polis polkovniki C.Daanov, eyni zamanda daxili işlər naziri, general-polkovnik cənab Vilayət Eyvazovun fiziki cəhətdən sağlam, intellektual səviyyəli, müasir tələblərə cavab verən peşəkar hüquqşünas kadrlarının hazırlanması kimi vacib bir vəzifənin Akademiya qarşısında qoyduğunu tədbir iştirakçılarının diqqətinə çatdırıb.

Konfransda çıxış edən qonaqlar beynəlxalq tədbirin keçirilməsini yüksək qiymətləndirib və bu əməkdaşlıqdan məmnunluqlarını ifadə ediblər.

# Daxili İşlər Nazirliyi beynəlxalq əməkdaşlığa xüsusi önəm verir

*Əvvəli ötən sayımızda.*

### İnterpolun Milli Mərkəzi Bürosu regional təhlükəsizliyə töhfə verir

Ölkəmiz Beynəlxalq Cinayət Polis Təşkilatı-İnterpola üzv olduğu andan xarici dövlətlərin hüquq mühafizə orqanları ilə birbaşa əməkdaşlıq əlaqələrinin təməli qoyulub. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin tərkibində yaradılan İnterpolun Milli Mərkəzi Bürosu regional təhlükəsizliyin qorunması üçün terrorçuluq, narkotiklərin qanunsuz dövriyyəsi, insan alveri, qaçaqmalçılıq kimi beynəlxalq mütəşəkkil cinayətkarlığa qarşı mübarizədə fəal mövqe sərgiləyir.



Həm ölkəmizin, həm də İnterpola üzv olan ölkələrin hüquq mühafizə orqanları arasında cinayətkarlıqla mübarizə sahəsində informasiya mübadiləsini həyata keçirən Mərkəzi Büronun fəaliyyəti nəticəsində təhlükəli cinayətkarların qanuni təqibi həyata keçirilir.

Bununla yanaşı, İnterpola üzv olmayan ölkələrlə də razılaşma əsasında əməkdaşlıq mövcuddur.

### MDB iştirakçısı olan dövlətlərin Daxili İşlər Nazirləri Şurası etibarlı kollektiv orqana çevrilib

Azərbaycan Müstəqil Dövlətlər Birliyinə üzv olan ölkələrin Daxili İşlər Nazirləri Şurası kimi regional təşkilatda da təmsil olunur. Nazirlər Şurası çərçivəsində Azərbaycan DİN-i yaxın qonşu və tərəfdaş ölkələrin polis strukturları ilə birgə fəaliyyətə xüsusi diqqət yetirir. Bu qurum təhdidlərə və təhlükələrə qarşı mübarizədə Birlik ölkələrinin polis strukturlarının fəaliyyətini effektiv şəkildə əlaqələndirən, daim öz işini müasirləşdirən kollektiv orqan kimi fəaliyyət göstərir. Daxili işlər nazirləri arasında dostluq və işgüzar münasibətlər çərçivəsində müntəzəm olaraq keçirilən görüşlər də cinayətkarlıq və onun transmilli mütəşəkkil formaları ilə mübarizənin aktual problemlərini operativ şəkildə həll etməyə imkan verir.

MDB iştrakçısı olan dövlətlərin Daxili İşlər nazirliklərinin operativ xidmətlərinin sıx əməkdaşlığı sayəsində çoxlu sayda böyük rezonans doğuran ağır cinayətlərin üstü açılıb, transmilli cinayətkar qruplar aşkar edilərək zərərsizləşdirilib, təhlükəli cinayətkarlar saxlanılıb və onların ekstradisiyası məsələləri həll edilib. Sıx əməkdaşlıq çərçivəsində xüsusən beynəlxalq terrorçuluğa, narkotik qaçaqmalçılığına və qanunsuz silah ticarətinə qarşı aparılan səmərəli mübarizə regionda sabitliyin qorunmasına böyük fayda verir.

### "Sərhəd-Sipər" əməliyyatları transmilli cinayətkarlığa sədd çəkir

Təhlükəsizlik tədbirləri çərçivəsində qonşu dövlətlərin hüquq mühafizə orqanlarının rəhbərləri ilə əldə edilmiş qarşılıqlı razılaşmaya əsasən sərhədlərimiz ətrafında vaxtaşırı kompleks əməliyyat-axtarış, profilaktik tədbirlər keçirilir və bunlar öz səmərəsini real nəticələrdə göstərir.

Şimal qonşumuz Rusiya Federasiyası ilə birgə tədbirlərin keçirilməsi möhkəm ənənələr üzərində qurulub və daxili işlər nazirləri arasında əldə olunmuş qarşılıqlı razılaşmaya əsasən, hər iki ölkənin sərhədyanı rayonlarının ərazisində şərti adı "Sərhəd-Sipər" olan birgə kompleks əməliyyat-axtarış və profilaktik tədbirlər keçirilir.

Bu əməliyyatların əsas məqsədi transmilli mütəşəkkil cinayətkar dəstələrin ifşa edilərək zərərsizləşdirilməsi, silah-sursatın, partlayıcı maddələrin və qurğuların, narkotik vasitələrin, eləcə də digər hüquqazid əməllərin həyata keçirilməsinə yönələn maliyyə və maddi vəsaitlərin daxil olma kanallarını müəyyənləşdirməkdir

Sadaladığımız bütün bu faktlar bir daha onu göstərir ki, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi beynəlxalq əməkdaşlıq sahəsində fəaliyyətini uğurla davam etdirir, qabaqcıl dünya ölkələrinin təcrübəsinə yiyələnir, cinayətkarlığa qarşı beynəlxalq təşkilatlar və digər ölkələrin müvafiq qurumları ilə koordinasiyalı mübarizə aparır.

*Rəşad Mehtiyev*

# Güclülər qalib gəldi




**Respublika gününə həsr olunmuş silsilə tədbirlər çərçivəsində Polis Akademiyasında döyüş hazırlığına marağın artırılması məqsədilə kurslar arasında hərbi döyüş estafet yarışı keçirilib.**

Əvvəlcə ümummilli lider Heydər Əliyevin və Azərbaycanın suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların, həmçinin xidməti tapşırıqları yerinə yetirərkən həlak olan polis əməkdaşlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, sonra Dövlət himni səsləndirilib.

Hərbi kafedranın rəisi, polis polkovniki Hacı Aslanov hərbi döyüş estafetinin proqramı ilə şəxsi heyəti tanış etdikdən sonra yarışa start verilmişdir.

Estafet qaydalarına əsasən komanda iştirakçıları altı mərhələni keçərək, gözübağlı 9 mm "Makarov" tapançası və "Kalaşnikov" avtomatının sökülüb-yığılmasını, avtomat darağının doldurulmasını, döyüş-sursat yeşiyinin daşınmasını, eləcə də müxtəlif vəziyyətlərdən hədəfə pnevmatik silahdan atəş açılmasını praktiki olaraq yerinə yetiriblər.

Münsiflər heyətinin rəyinə əsasən bütün mərhələləri uğurla başa vuran IV kursun komandası birinci yerə layiq görülərək kubokla təltif edilib.

*“Polis”*

# Şəhid övladlarını sevindirdilər

***Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə Daşkəsən Rayon Polis Şöbəsinin əməkdaşları torpaqlarımızın müdafiəsi uğrunda canından keçmiş şəhid ailələrini ziyarət edərək onların övladları ilə görüşüblər. Şəhid övladlarını bayram münasibəti ilə təbrik edən polis əməkdaşları onlara hədiyyələr təqdim ediblər.***

# Həyatın dibindən dünyanın fəthinə...

**Bu gün o, şirkət rəhbəri, alkoqolizm və narkotikdən asılılığı olanların reabilitasiya mərkəzinin, xüsusi təyyarənin sahibidir.**




Uşaqlıqda aldığı mənəvi zərbələr öz təsirini göstərir və o, narkotikə qurşanır.

Yeniyetmə yaşlarında zorakılıq, əzab-əziyyətdən ibarət olmuş uşaqlığını unutmaq üçün Los-Ancelesə yollanır. Öz sağlamlığının qayğısına qalmağı qarşısına məqsəd qoyur və tezliklə narkotik maddələrin qəbulundan imtina edir. Bu, ona böyük əziyyət bahasına başa gəlsə də o, müalicəsini yarıda qoymur.

Həyatının səhifəsini yenidən yazmağı bacaran Xəlil 13 il öncə başına gələnləri müsahibələrinin birində belə qeyd edir: “Eyş-işrət şənliklərinin birində narkotik vasitə qəbul etdikdən sonra ölümün pəncəsindən güclə qurtuldum. Mən elə dərinlikdəydim ki, ordan çıxmağım möcüzə kimi idi. Və bu möcüzə baş verdi. Məndən üz çevirən ailəmi və dostlarımı yenidən qazandım. İndi çox xoşbəxtəm...”

Xəlil Rafatinin “Mən ölməyi unutdum” kitabı beynəlxalq bestsellerlər arasında yer alır. Kitabda narkotikdən əziyyət çəkən bir insanın düşdüyü mühüt, yaşadığı depressiya, narahatlıq, ruh düşkünlüyü ilə mübarizə apamağın yolu göstərilir.

X.Rafati əsərində həkimlərlə yanaşı həyata yenidən qayıdışında, əzizlərinə, doğmalarına qovuşmasında əsas rol oynayan, ona həyatını məhv edən “ağ ölüm”ün caynağından xilas yolu göstərən, polisə də təşəkkür etməyi unutmur.

*Ruslan Vəliyev,*
*polis baş leytenantı*

# “Xaşxaş-2021” şərti adı altında tədbirlər keçirilib

**Xəzər RPİ**-nin əməkdaşları Türkan qəsəbə sakini E.Bəşirova məxsus istixanadan 6 ədəd, **1-ci PŞ**-nin əməkdaşları Türkan qəsəbə sakinləri R.Sübhanova məxsus həyətyanı sahədən 13 ədəd, Z.Məmmədova məxsus həyətyanı sahədən 89 ədəd, **Sabunçu RPİ 14-cü PB**-nin əməkdaşları Maştağa qəsəbə sakini Ş.Sultanova məxsus həyətyanı sahədən 475 ədəd, **Şabran RPŞ**-nin əməkdaşları Şahnəzərli kənd sakini E.Qafarova məxsus həyətyanı sahədən 19 ədəd, **Xaçmaz RPŞ**-nin əməkdaşları Xudat şəhər sakini, əvvəllər məhkum olunmuş N.Nuriyevə məxsus həyətyanı sahədən 12 ədəd kultivasiya yolu ilə yetişdirilmiş çətənə kolları aşkar edərək götürmüşlər.

**Balakən RPŞ**-nin əməkdaşları tərəfindən Tülü kənd sakini E.Abulova məxsus həyətyanı sahədən kultivasiya yolu ilə yetişdirilmiş 35 ədəd çətənə kolu aşkar edilərək götürülmüşdür. Davam etdirilən tədbirlərlə onun əmisi X.Abulova məxsus həyətyanı sahədən isə kultivasiya yolu ilə yetişdirilmiş 53 ədəd çətənə kolu və 13 kiloqram 455 qram marixuana aşkar edilərək götürülmüşdür.

**Şəmkir RPŞ**-nin əməkdaşları tərəfindən Keçili kəndi ərazisində 3 ton 60 kiloqram çəkidə 10.200 ədəd, Düyərli kəndi ərazisində 7 ton 360 kiloqram çəkidə 11.300 ədəd, **Göygöl RPŞ**-nin əməkdaşları tərəfindən rayon ərazisində 3 ton 845 kiloqram çəkidə 1460 ədəd, **Qubadlı RPŞ və DSX**-nin əməkdaşları tərəfindən Davudlu kəndi ərazisində 1,7 ton çəkidə 3031 ədəd yabanı halda bitmiş çətənə kolları aşkar edilərək məhv edilmişdir.

*Natiq Cavadov,*
*polis mayoru*

# Onun uğur hekayəsi

**Onun uğur hekayəsinin ilk səhifəsi bəlkə də elə müəllim ailəsində doğulduğu gün yazılıb. Çünki valideynləri övladlarını doğru-dürüst və halal zəhmətlə böyütməklə kifayətlənməyiblər, həm də bir müəllim kimi həyatda doğru yolu tapmağa ilk vaxtlardan bələdçilik ediblər.**

Həyatın yolları nə qədər enişli-yoxuşlu olsa da, məqsədi və hədəfi olanlar şəxsi qətiyyətləri ilə ucalıqdakı zirvələri fəth etməyi bacarırlar. **İsmayıllı Rayon Polis Şöbəsinin rəisinin şəxsi heyətlə iş üzrə köməkçisi, polis kapitanı Şəmdinli Nicat** da bu gün xidməti fəaliyyəti ilə öz uğur hekayəsinin sətir-sətir davamını yazır.



O, Birinci Qarabağ müharibəsində döyüşən polis əmisi kimi qanun keşikçisi olacağını hələ uşaq ikən qarşısına məqsəd qoyub, hədəfini müəyyən edib. Polis olmaq arzusu 2015-ci ildə Polis Akademiyasını bitirib xidmətə başlaması ilə həyata keçib, ardınca bir-birini əvəz edən vəzifələrdə - Ağdaşda sahə inspektoru, sahə rəisi, İsmayıllı RPŞ-də kadrlar qrupunun baş inspektoru işləyib. Ötən il isə isə gənc əməkdaşın xidmətlərini nəzərə alan DİN rəhbərliyi tərəfindən ona böyük etimad göstərilib, RPŞ rəhbərliyinin təqdimatı əsasında hazırkı vəzifəsinə təyin edilib. O, respublikanın polis şöbələrində xidmət edən ən gənc şəxsi heyətlə iş üzrə köməkçilərdən biridir.

Bu təsadüfi deyil, çünki DİN-də kadrların komplektləşdirilməsi dövlət başçısının gənclərlə bağlı siyasətinə uyğun aparılır, bacarıqlı, səriştəli gənclər daxili işlər orqanlarında xidmətə qəbul olunur, vəzifələrdə irəli çəkilir. Həmkarımızın bilik və bacarığı, xidmətə münasibəti də onu gənc yaşda irəli çəkilməsinə imkan verib. Gənc əməkdaşın məsul vəzifəyə təyin olunması Rayon Polis Şöbəsinin rəhbərliyi tərəfindən bu xəttin davam etdirildiyini göstərir.

Deyir ki, vəzifədə irəli çəkilmək qürurverici olmaqla yanaşı, həm də məsuliyyət yükünün artması deməkdir. O, şöbənin şəxsi heyətin mənəvi-psixoloji durumuna nəzarət etmək, problemlərinin həllinə yardımçı olmaq, sosial qayğıların diqqətdə saxlamaqla bərabər, rayon ictimaiyyəti arasında polisin nüfuzunun artması üçün də fəal iş aparır. İkinci Qarabağ müharibəsindən sonra rayon polisi xüsusilə qazi və şəhid ailələrinə diqqət və qayğı göstərir, onlarla görüşlərin keçirilməsi, bu istiqamətdə DİN rəhbərliyinin tapşırıq və tövsiyələrinin icra olunması şəxsi heyətlə iş üzrə rəis köməkçisi olaraq onun gündəlik fəaliyyətinin ilk sırasında dayanır.

Bunu həm vəzifə, həm də özünün mənəvi borcu hesab edən Nicat Şəmdinli vətəndaş məmnunluğunun təmin edilməsinin prioritet olaraq rəhbərlik tərəfindən nəzarətdə saxlanıldığını, hətta polisin səlahiyyətinə aid olmayan məsələlərdə belə vətəndaşlara kömək etməklə, problemlərinin həllinə çalışdıqlarını deyir. Bu isə rayon ictimaiyyəti arasında polisin nüfuzunun artmasına, polis - vətəndaş münasibətinin möhkəmlənməsinə səbəb olur. Hər il İsmayıllı rayonundakı orta məktəbləri bitirən ən azı 20-yə yaxın abituriyentin Polis Akademiyasına qəbul olmaq üçün sənəd verməsi, həmkarlarımızın rayonda böyük hörmət qazandıqlarının bir təzahürüdür.

Polis kapitanı N.Şəmdinli valideynlərinin onu görmək istədikləri peşə sahibi kimi, indi sağlam cəmiyyət naminə çalışır, dövlətə, dövlətçiliyə xidmət edir. Uğrunda çarpışdığı amalın ona hər zaman başucalığı gətirəcəyinə, yaddaşlarda qalacağına inanır.

*Rəşad Mehtiyev,*
*polis baş serjantı*

# Gümüş medal qazandı

Mayın 29-da Beynəlxalq Ağırlıqqaldırma Federasiyasının təşkilatçılığı ilə usta ağırlıqqaldıranlar arasında dünya çempionatı keçirilib. Yarışda Əlahiddə Çevik Polis Alayının Patrul Bölüyünün polis nəfəri, polis serjantı Virur Bayramov da qüvvəsini sınayıb.

Pandemiya səbəbindən onlayn təşkil edilən turnirdə, yaşı 35-39 arası olan atletlərin (M-35) qrupunda 89 kiloqram çəki dərəcəsində çıxış edən V.Bayramov toplam 299 kiloqram (136+163) nəticə ilə 2-ci yer tutub.



Qeyd edək ki, əməkdaşımız bir neçə beynəlxalq yarışın qalibidir.

*Ə.Teymur*

# Silah-sursat aşkarlanıb



Xocavənd Rayon Polis Şöbəsinin əməkdaşları rayonun işğaldan azad edilmiş ərazilərində həyata keçirdikləri növbəti tədbirlər zamanı tərk edilmiş hərbi mövqelərdən 12 ədəd avtomat, 1 ədəd qumbaratan və 1 ədəd əl qumbarası aşkar edərək aidiyyəti üzrə təhvil veriblər.

❖❖❖

Şəmkir Rayon Polis Şöbəsinin əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbiri nəticəsində rayon sakini, əvvəllər məhkum olunmuş Əkbər Sadıqovdan 1 ədəd istifadəyə yararlı tapança pulemyot, 1 ədəd onun komplekt hissəsi hesab edilən sandıqca və 150 ədəd 7.62 mm-lik atəşə yararlı patron aşkar edilərək götürülüb.

Davam etdirilən tədbirlər nəticəsində rayonun Dəllər-Cəyir kənd sakini Elşad Əliyevdə də odlu silah aşkarlanıb. Belə ki, daxil olmuş məlumat əsasında keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində E.Əliyevin yaşadığı fərdi yaşayış evinə baxış keçirilmiş və oradan 1 ədəd, istifadəyə yararlı “Makarov” konstruksiyalı tapança, həmin tapançaya aid daraq, 23 ədəd patron və bıçaq aşkar edilərək götürülüb. İlkin dindirilmə zamanı, saxlanılan şəxs odlu silahı bir neçə ay əvvəl qəbiristanlıqdan tapdığını bildirib.

RPŞ-nin, Kür və Zəyəm Polis bölmələrinin bu istiqamətdə keçirdikləri digər əməliyyat tədbirləri də uğurla nəticələnib. Rayon sakinlərindən müvafiq sənədləri olmayan 10 ədəd müxtəlif markalı və çaplı ov tüfəngləri aşkarlanıb.

Faktlarla bağlı RPŞ-nin İstintaq Bölməsində araşdırmalar davam etdirilir.

# Qonşu oğru olanda...



Şəhərdə tikinti materialları mağazası işlədən Hafis Zamanov adəti üzrə hər gün işə getməzdən əvvəl həyət-bacanı gəzər, anbar kimi istifadə etdiyi talvarın altındakı malları nəzərdən keçirərdi. Növbəti gün elektrik naqillərinin yığıldığı yerə baxanda bir anlıq duruxdu. "Axı burada daha çox bağlama olmalıydı",-deyə öz-özünə danışmağa başladı. Əvvəlcə işçilərin səhv etdiklərini düşündü. Sonra təhvil-təslim sənədlərini anbardarla bir yerdə nəzərdən keçirdilər. Sənədlər qaydasında olsa da elektrik naqilləri olan 124 bağlama əskik gəldi. Çarəsiz qalıb polisə müraciət etdi.

Faktla bağlı Mingəçevir Şəhər Polis Şöbəsində cinayət işi açılıb və araşdırmalara başlanılıb.

Çox keçməyib ki, hadisəni törətməkdə şübhəli bilinən Mingəçevir şəhər sakini, əvvəllər məhkum olunmuş Ənvərpaşa Qasımov müəyyən olunaraq istintaqa cəlb olunub.

Məlum olub ki, o, əvvəllər H.Zamanovun həyətində fəhlə kimi çalışıb. Yaxınlıqda yaşadığından bura tez-tez tikinti materiallarının gətirildiyini müşahidə edib. Aprelin 2-dən 10-na kimi gecələr hasardan aşmaq yolu ilə həyətə daxil olaraq 124 ədəd elektrik naqili olan bağlamanı oğurlayıb.

Onun ətrafında aparılan sonrakı araşdırmalar da nəticəsini verib.

Ənvərpaşanın qabaqcadan əlbir olduğu Səməd Əliyev və Elvin Şirəliyevlə birlikdə dəfələrlə H.Zamanovun həyətindən analoji oğurluq hadisəsi törətdiyi də aşkara çıxıb.

Bundan başqa, istintaqla müəyyən olunub ki, təqsirləndirilən şəxs Nurlan Xəlilovun işlətdiyi qəssabxanadan da oğurluq əməli törədib.

*Çingiz Şıxverdiyev*

## Çətənə kolları məhv edilib

***Göygöl Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən keçirilən "Xaş-xaş-2021" şərti adlı kompleks əməliyyat-axtarış və profilaktik tədbirlər nəticəsində rayonun Firuzabad qəsəbəsi ərazisində yabanı halda bitən narkotik tərkibli çətənə kolları aşkar edilib. Ümumi çəkisi 3 ton 800 kiloqramdan artıq olan çətənə kolları kökündən çıxarılıb və yandırılaraq məhv edilib.***



**Baş Narkotiklərlə Mübarizə İdarəsi** əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən Bakı şəhər sakini Z.Məmmədov Yasamal rayonu ərazisində saxlanılmışdır. Şəxsi axtarış zamanı ondan 97 qramdan artıq heroin, 102 qrama yaxın metamfetamin və 1 ədəd narkotik vasitələrin dövriyyəsində istifadə etdiyi bank kartı aşkar edilmişdir. Davam etdirilən tədbirlərlə onun yaşadığı mənzilə baxış zamanı oradan 6 kiloqram 190 qram heroin, 3 kiloqramdan artıq metamfetamin, 1 kiloqram 145 qrama yaxın tiryək, 946 qramdan artıq marixuana, 200 ədəd metadon həbi və 2 ədəd elektron tərəzi götürülmüşdür.

◆◆◆

**Gəncə ŞBPİ** əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində şəhər sakini, əvvəllər məhkum olunmuş E.Məmmədovdan nömrəsi silinmiş "TT" markalı tapança, 1 ədəd patron və patron darağı aşkar edilərək götürülmüşdür.

◆◆◆

**Sumqayıt ŞPİ** əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində əvvəllər məhkum olunmuş C.Quliyev saxlanılmışdır. Şəxsi axtarış zamanı ondan 11 qramdan artıq heroin aşkarlanmışdır. Davam etdirilən tədbirlərlə onun yaşadığı evə baxış zamanı oradan 573 qram heroin götürülmüşdür.

***

**Baş Narkotiklərlə Mübarizə İdarəsi** əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən Beyləqan rayon sakini S.Hüseynli Abşeron rayonu ərazisində saxlanılmışdır. Şəxsi axtarış zamanı ondan 27 qramdan artıq heroin və 9 qrama yaxın metamfetamin aşkar edilmişdir. Davam etdirilən tədbirlərlə onun yaşadığı evə baxış zamanı oradan 1 kiloqram 545 qram heroin, 780 qram metamfetamin və elektron tərəzi götürülmüşdür.

◆◆◆

**Sabunçu RPİ 13-cü PB** əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Bakıxanov qəsəbəsi ərazisindəki mağazaların birində oranın sahibindən soyğunçuluq yolu ilə 4060 manat, 200 manat dəyərində danışıq kartları və hesabında 360 manat olan bank kartını talamaqda şübhəli bilinən S.Məmmədov saxlanılmışdır.




◆◆◆

**Nəsimi RPİ 20-ci PB** əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində mayın 23-də rayon ərazisindəki psixoloji xidmət mərkəzindən 5300 manat dəyərində aypad (iPad), fotoaparat və 8 ədəd noutbuk oğurlamaqda şübhəli bilinən Bakı şəhər sakini K.Abdullayev, Ucar rayon sakinləri O.Məmmədov və A.Əhmədov saxlanılmışlar.

◆◆◆

**Sabirabad RPŞ** əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində mayın 27-də Muğan Gəncəli kəndi ərazisində Neftçala rayon sakini M.Əliyevə məxsus fermadan 176 baş qoyun oğurlamaqda şübhəli bilinən Salyan rayon sakini T.Bayramov və Gəncə şəhər sakini V.İsrafilov saxlanılmışlar.

◆◆◆

**Şamaxı RPŞ** əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində rayon ərazisindəki mağazaların birindən oğurluğa cəhd göstərməkdə şübhəli bilinən Sumqayıt şəhər sakini, əvvəllər məhkum olunmuş E.Səlimbəyli saxlanılmışdır. Şəxsi axtarış zamanı ondan "Marqolin" markalı tapança, 7 ədəd patron və patron darağı aşkar edilərək götürülmüşdür.

◆◆◆

**Biləsuvar RPŞ** əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində Bakı şəhər sakini E.Eyyubovun idarə etdiyi "Toyota" markalı avtomobilə baxış zamanı oradan sərnişini - paytaxt sakini S.Həsənzadəyə məxsus 1 kiloqram 172,5 qramdan artıq heroin aşkar edilərək götürülmüşdür.

◆◆◆

Mayın 30-da **Yevlax** şəhəri ərazisində naməlum şəxsin 4 yaşlı qıza zor tətbiq edərək qızıl boyunbağısını talaması barədə **Rayon Polis Şöbəsinə** məlumat daxil olmuşdur. Polis əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində soyğunçuluğu törətməkdə şübhəli bilinən şəhər sakini H.Əsgərov müəyyən edilərək saxlanılmışdır. Araşdırma aparılır.

## 2021-ci ilin II yarısı üçün "Polis"ə- öz qəzetinizə abunə olmağa tələsin!

# Polis obrazı psixoloji təsir kimi...

### Uşaqların polis olmaq arzusu onları polislə qorxudanda məhv olur



Övladının cəmiyyət üçün faydalı böyüməsində hər bir valideyn maraqlıdır. Bu baxımdan valideynlərin uşaqlarına verdiyi təlim-tərbiyə mühüm əhəmiyyət kəsb edir. Çünki sosial statusundan, eləcə də dünyaya baxış tərzindən asılı olaraq hər kəsin tərbiyə metodu fərqlidir. Bəzi valideynlər nadinclik edən övladlarını sakitləşdirmə formasını izahedici söhbətlərdə, bəziləri isə kiçik hədələrlə - polisin, həkimin adlarını çəkməklə qorxutmaqda görürlər. Əvvəla, mütəxəssislərin fikrincə, uşaqların tərbiyə olunmasında ən düzgün yol izahedici söhbətlərin aparılması, maarifləndirmədir. İkinci-hədə üsuluna gəlincə, bu üsul kökündən yalnışdır. Bir çox hallarda bizə mahiyyətcə kiçik görünən bu hədələr, əslində, uşaqların şüurallı təfəkküründə polisə, həkimə qarşı qorxu hissi yaradır. Fransız yazıçısı və filosofu Jan Jak Russonun da dediyi kimi "Əgər siz uşaqlarda dəcəllik hissini öldürsəniz, heç vaxt müdrik insan yetişdirə bilməzsiniz". Deməli, uşaqların sağlam, yetişkən ruhda böyüməsini istəyiriksə, bu tərzdən yan qaçmalıyıq. Polisi uşaqlara hədə obrazında deyil, ədalətin təmsilçisi, qanun qoruyucusu, adamları hər cür təhlükədən qorumaq üçün özünü təhlükəyə atan şəxs, obrazlı desək, sevdikləri cizgi filminin qəhrəmanı kimi tanıtmalıyıq. Ona görə ki, uşaq dara, çətinə düşəndə ilk kimə, necə və nə cür müraciət edəcəyini bilsin. Məsələn, ABŞ-da hər hansı bir çətinliklə üzləşən uşaq kömək üçün "911"-ə müraciət edəcəyini bilir. Bəs, bizdə? Övladlarımız hər hansı bir problemlə üzləşəndə DİN-in "102 Xidməti-Zəng Mərkəzinə" müraciət edəcəklərini bilirlərmi? Zənnimizcə, "uşaqdır, heç nə başa düşmür",-deyib özümüzün hədə tərbiyə üsuluna haqq qazandırmaqdansa, polisin hüquqlarımızın müdafiəçisi, eləcə də əmlakımızın, evimizin etibarlı mühafizəçisi olduğunu uşaqlarımıza izah etsək, daha doğru olar.

Unutmayaq ki, uşağa deyilən hər bir söz onun şəxsiyyətini formalaşdıran əsas amillərdən biridir.

*Teymur Əlizadə,*
*polis mayoru*

# Təhlükəsizliyiniz üçün istifadə edin

**Avtomobil sənayesi inkişaf etdikcə istehsalçıları komfortla bərabər sürücünün və sərnişinlərin yol nəqliyyat hadisəsi zamanı fərdi qaydada zərərçəkməsini minimallaşdırmaq düşündürür. İlk yada düşən də təhlükəsizlik kəməridir.**



Təhlükəsizlik kəməri milyonlarla insan həyatını xilas edib. Ondan istifadə etməklə ildə 100 mindən çox insan həyatını qorumuş olur.

Kəmərin əsas üstünlüyü insanı oturacaqda tutma qabiliyyətidir. Mütəxəssislər hesab edir ki, toqquşma nəticəsində sürücü və sərnişinlərin yüzdə 75 faizi həlak olur. Avtomobilin sürəti artdıqca, qəza zamanı insanın üzərinə düşən zərbə də həndəsi silsilə ilə artır. Tədqiqatlar göstərir ki, təhlükəsizlik kəmərindən istifadə edərkən ölüm riski avtomobilin aşması zamanı 5, üzbəüz toqquşma zamanı 2-3, yandan zərbə zamanı isə 1,8 dəfə azalır.

Məsələn, 50 kilometr sürətlə toqquşma binanın dördüncü mərtəbəsindən yıxılmaqla müqayisə olunur. Zərbə nəticəsində 7 kilometr sürətlə də yaralanmaq mümkündür.

Təhlükəsizlik kəmərindən istifadə edilməsi ilk dəfə 19-cu əsrin əvvəllərində ingilis ixtiraçısı Corc Keyli tərəfindən təklif edilib. 1903-cü ildə isə Luis Reno beşnöqtəli təhlükəsizlik kəmərini ixtira edib. Təhlükəsizlik kəmərləri ilk dəfə aviasiyada tətbiq edilmişdir. Belə ki, fransız pilot Adolf Pequ 1913-cü ildə təhlükəsizlik kəmərini təyyarəsinə quraşdırmışdı. Müasir təhlükəsizlik kəmərinin tətbiq edildiyi ilk avtomobil isə 1959-cu ildə buraxılan "Volvo PV 544" olub. Təhlükəsizlik kəmərini ixtira edən mühəndis Nils Bolin patent alandan sonra bütün avtomobil istehsalçılarının sərbəst istifadəsinə start verildi. 1967-ci ildən etibarən bütün avtomobillər təhlükəsizlik kəmərləri ilə təchiz edilir.

Ölkəmizə gəlincə, qeyd edək ki, təhlükəsizlik kəmərindən istifadə etməyən sürücülər barədə qanunvericilikdə inzibati cəza tədbiri nəzərdə tutulur.

Bu ilin müvafiq dövrü ərzində yol patrul xidmətinin əməkdaşları tərəfindən 62,855 sürücü barəsində təhlükəsizlik kəmərini taxmadığına görə tədbir görülüb.

*Ruslan Vəliyev,*
*polis baş leytenantı*

## May ayının 26-dan iyunun 1-dək olan müddət ərzində

- Respublikanın daxili işlər orqanları tərəfindən, ötən həftə ərzində törədilmiş 299 cinayətin üstü "isti izlər"lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 53 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 222, o cümlədən borclu şəxs qismində axtarışda olan 128 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 4 yol-nəqliyyat hadisəsi baş vermiş, nəticədə 4 nəfər ölmüş, 1 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 196 fakt müəyyən edilmişdir.

POLİS qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 9025
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 17:00
Qiyməti 40 qəpik